# Qloballaşma şəraitində Azərbaycan Respublikasında informasiya təhlükəsizliyi və milli maraqlar

Elşad Həsənli

*AMEA İnformasiya Texnologiyaları İnstitutu*

xeber36@aztv.az

***Xülasə*— Məqalədə qloballaşma şəraitindəAzərbaycan Respublikasındainformasiya təhlükəsizliyi və milli maraqlar təhlil olunur. Müəllif informasiyanın cəmiyyətdə rolu və əhəmiyyəti, qloballaşma, informasiya təhlükəsizliyi, eyni zamanda cəmiyyətdə informasiya bərabərsizliyi və onun aradan qaldırılması yollarını təhlil edir. Eləcə də qloballaşma şəraitində nəzərə alınmalı məsələlər üzvü şəkildə əlaqələndirilir. Milli maraqlar və informasiya təhlükəsizliyi arasındakı əlaqələr vurğulanır. Eyni zamanda tədqiqatda təsdiqlənir ki, dövlətin beynəlxalq informasiya sistemi sahəsində milli maraqları və informasiya təhlükəsizliyinin təmin olunması naminə konstruktiv əməkdaşlıq prinsipini rəhbər tutması onun siyasətinin humanist xarakterindən xəbər verir. Şəxsiyyətin təhlükəsizliyi dövlətin informasiya təhlükəsziliyi siyasətinin mərkəzində dayanır. Azərbaycan Hökumətinin ölkədə informasiya təhlükəsizliyinin təmin edilməsində rolu məsələləri də məqalədə təhlil olunur.**

***Açar sözlər*— milli təhlükəsizlik; informasiya təhlükəsizliyi; informasiya müharibəsi; informasiya bərabərsizliyi; milli maraqlar; kiber təhlükəsizlik.***

Bu gün "İnformasiya cəmiyyəti","informasiya təhlükəsizliyi", "informasiya müharibəsi", "informasiya iqtisadiyyatı" və digər bu kimi ifadələr yalnız mütəxəssislərin işlətdiyi anlayışlar deyil, müxtəlif sosial qarşılıqlı təsirlərin dərk edilməsində geniş və fəal istifadə olunan terminlərdir. İnformasiya fenomeninin elmi tədqiqinə jurnalistika nəzəriyyələri çərçivəsində hələ XX əsrin 20-30-cu illərində başlanmışdır. Bununla belə informasiya fenomeni ötən yüzilliyin ikinci yarısında öyrənilməyə başlanılmışdır. Lakin həmin dövrdə informasiya anlayışına maraq daha çox texniki və hərbi məqsədlərin ehtiyacları ilə izah olunmalıdır [1]. Amerika sosioloqu Daniel Bell özünün informasiya cəmiyyəti konsepsiyasında bilik və informasiya anlayışlarını "strateji resurs" kimi təqdim edir [2]. Zaman göstərir ki, informasiyanın sosial əhəmiyyətinin dərki müasir texniki, iqtisadi, siyasi, hərbi və mədəni faktorlardan asılıdır.

Dəyər-resurs sayılan informasiya cəmiyyətin hər bir üzvünə əlyetər olmalı, arzuedilməz təsirlərdən müdafiə olunmalıdır, çünki müdafiə olunmayan informasiya informasiya təhlükəsizliyini təmin edə bilməz.

Informasiya təhlükəsizliyinə təhdid olan "informasiya bərabərsizliyi" anlayışına nəzər salaq. İnformasiya bərabərsizliyi müxtəlif ölkələrin, regionların, birliklərin və sosial təbəqələrin, qrupların qlobal informasiya cəmiyyətinə cəlb olunması meyarına görə inkişafın durumu və səviyyəsinin xarakteristikasıdır [3].

Bu problem barədə daha geniş bəhs etmək mümkündür. Bunu demək kifayətdir ki, "informasiya bərabərsizliyi" son nəticədə, sosial bərabərsizliklə nəticələnir və dövrümüzdə informasiyanın sosial və iqtisadi əhəmiyyətindən xəbər verir [4].

Tədqiqatlarda "informasiya bərabərsizliyi" anlayışı, "rəqəmsal bərabərsizlik" sözü ilə eyniləşdirilir. "Rəqəmsal bərabərsizlik" "(digital divide)" termini ilk dəfə ABŞ dövlət telekommunikasiya və informasiya administrasiyasının hesabatında işlədilmişdir [5]. "Rəqəmsal bərabərsizlik" deyilərkən ən yeni informasiya və telekommunikasiyalardan müxtəlif istifadə imkanlarından irəli gələn yeni sosial differensasiya növü başa düşülür [5]. Məhz belə bərabərsizlik iqtisadi və social bərabərsizliyin daha da dərinləşməsinə və nəticədə dünyada sabitsizliyin artmasına gətirib çıxara bilər. Başqa sözlə, informasiya bərabərsizliyi sosial bərabərsizliyə səbəb olur. Əks proses də baş verə bilər, lakin müasir mərhələdə informasiya bərabərsizliyi daha mühüm təhlükəsizlik probleminə çevrilmişdir [6].

Bu gün Azərbaycan cəmiyyətində informasiyalaşdırma prosesi geniş sosial dəyişikliklər şəraitində baş verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təkcə on illik fəaliyyəti dövründə respublikamız çox önəmli nailiyyətlərə, o cümlədən yüksək informasiya texnologiyalarından xalqın rifahı naminə uğurla istifadə edən inkişaf etmiş ölkəyə çevrilmişdir [7]. Odur ki, informasiya bərabərsizliyinin aradan qaldırılması həm texnoloji tərəqqinin mühüm faktoru, həm də informasiya təhlükəsizliyinə təhdidlərin qarşısının alınmasında kəsərli amillər kimi çıxış edə bilər, bu isə son nəticədə cəmiyyətin inkişafının optimallaşdırılmasına yardımçı ola bilər.

Milli təhlükəsizlik dövlətin fəaliyyətdə əsas götürülən milli maraqlar konteksində, müasir nəzəriyyələrdə başlıca yer tutan müddəalar müstəvisində nəzərdən keçirilməli, milli maraqlar baxımından öyrənilməsinə üstünlük verilməlidir. İnformasiya təhlükəsizliyi və milli maraqlar ölkənin geosiyasi reallıqlarının dərk edilməsində müstəsna rol oynayır. Milli təhlükəsizliklə sıx bağlı olan informasiya təhlükəsizliyi dünya nizamını nəzərdən keçirir, qlobal təhlükəsizliyin və regional təhlükəsizliyin əsas konsepsiyalarının işlənib hazırlanmasında mühüm rol oynayır. Geosiyasi təfəkkürün transformasiyası informasiya təhlükəsizliyinə və milli maraqlara yeni yanaşmaların formalaşmasına böyük təsir göstərir. Qeyd etmək lazımdır ki, milli təhlükəsizlik faktorları informasiya məkanında reallaşır [8]. Hazırda Azərbaycan Respublikasının beynəlxalq informasiya təhlükəsizliyi sistemində yeri və fəalliyyəti məsələləri mühüm aktuallıq kəsb edir. Təsadüfi deyil ki, dövlətin informasiya suverenliyi politoloji tədqiqatlarda mühüm tədqiqat obyektidir. Dövlətin informasiya suverenliyi anlayışını onun informasiya axınına nəzarət etmək qabiliyyəti

kimi başa düşülür. Təbii ki, elmi obyektivlik baxımından mövcud ədəbiyyata qarşılıqlı təhlil metodu əsasında nəzərdən keçirilməsinə üstünlük verilir. Araşdırılan mövzu kontekstinə, həmçinin siyasi-milli resursların axını probleminə dövlətin informasiya suverenliyinin əlamətləri, dövlətin milli-siyasi dəyərlərinin idarə olunması işində iştirakı, ümumiyyətlə dövlət suverenliyinin transformasiyası məsələlərinin əhəmiyyətini də nəzərə alırıq.

İnformasiya təhlükəsizliyinin beynəlxalq aspektinin geniş araşdırılması mühüm problemlərdən biridir. Qeyd edək ki, problemin beynəlxalq aspektini Azərbaycan Respublikasının rəsmi sənədlərindən geniş istifadə etməklə işlənilməsini məqsədəuyğun hesab edilir. Bu həmçinin dövlətin siyasi imici baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, informasiya komunikasiya texnologiyalarının (İKT) sürətlə inkişafı şəraitində kibertəhlükəsizlik, həmçinin informasiya silahının işlənib hazırlanması və tədbiqi problemi texnoloji sahədə siyasi məcraya doğru transformasiya edir. Azərbaycan dövlətinin beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsinin məqsədi İKT-nin keyfiyyətcə yeni inkişafı səviyyəsində silahlanmanın yeni mərhələsinə yol verməmək, inkişaf naminə resursları saxlama, dövlətlərarası ziddiyyətlərin güc tədbiq etməməklə həlli üçün həmin texnologiyalardan zorakılıqla istifadəni məhdudlaşdır-maqdır. Bunu ilk növbədə informasiya cəmiyyətinin (İC) inkişaf strategiyası tələb edir.

Dövlətin beynəlxalq informasiya sistemi sahəsində milli maraqları və informasiya təhlükəsizliyinin təmin olunması naminə konstruktiv əməkdaşlıq prinsipini rəhbər tutması onun siyasətinin humanist xarakterindən xəbər verir. Hələ 1990-cı illərin sonundan beynəlxalq informasiya təhlükəsizliyi böyük dövlətlər arasında problem sahəsi olmuşdur. Ənənəvi olaraq ABŞ və onun müttəfiqləri bu sahədə öhdəlik sənədlərinin qəbul edilməsinin əleyhinə idilər, lakin bu gün onlar etiraf edirlər ki, informasiya təhlükəsizliyi sahəsində hərbi-siyasi təhdidlər mövcuddur. Bu səbəbdən Azərbaycan Respublikasının BMT çərçivəsində beynəlxalq təhlükəsizlik sahəsində milli maraqları rəhbər tutmaqla dünya dövlətlərilə əməkdaşlığının qurulması məsələlərinin aktuallığını xüsusi qeyd lazımdır.

Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti, bu sahədə milli maraqların həyata keçirilməsi məsələlərindən bəhs edərkən dövlətin informasiya təhlükəsizliyi siyasətinin mahiyyəti və onun əsas istiqamətlərinin işlənməsi də xüsusi aktuallıq kəsb edir. Qeyd etmək lazımdır ki, informasiya təhlükəsiziliyi sahəsində dövlət siyasəti dövlət orqanlarının Azərbaycanın informasiya sahəsində milli maraqlarının həyata keçirilməsidir. Bu siyasətin məqsədi şəxsiyyətə, cəmiyyətə və dövlətə ola biləcək təhlükələrə qarşı əks tədbirlər görməkdir. Dövlət informasiya siyasəti konsepsiyası Azərbaycanın milli təhlükəsizlik konsepsiyasının müddəalarını inkişaf etdirir və konkretləşdirir. Bu konteksdə dövlətin informasiya siyasəti milli maraqların həyata keçirilməsi mexanizmi kimi çıxış edir. Ona görə də, milli maraqların xarakteri, onların dövlətin siyasətinin bütün istiqamətlərində, o cümlədən informasiya təhlükəsiziliyi siyasətində prioritet yer tutması xüsusi tədqiqat obyektidir.

Şəxsiyyətin təhlükəsizliyi dövlətin informasiya təhlükəsiziliyi siyasətinin əsasını təşkil edir. Əgər əvvəllər şəxsiyyət, cəmiyyət və dövlət təhlükəsizliyin əsas obyektləri və subyektləri kimi nəzərdən keçirilirdisə, hazırda onun subyektlər dairəsi xeyli genişlənmişdir. Azərbaycanda İC quruculuğunda dövlətin strategiyası, informasiya təhlükəsizliyi sistemində elektron hökumət texnologiyalarının yeri, infokommunikasiya sisteminin informasiya cəmiyyətinin inkişaf mexanizmi və şəxsiyyətin təfəkküründə informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşmasında informasiya təhsilinin rolu kimi məsələlər xüsusilə geniş araşdırılmalıdır.

İqtisadi və sosial sahələrin bütün istiqamətlərində, informasiya-kommuni-kasiyalar sahəsində davamlı artım templərinə nail olan Azərbaycan dünyanın inkişaf etməkdə olan ölkələrindən biridir. Prezident İlham Əliyevin iştirak etdiyi "BakuTel" sərgiləri Azərbaycanın İC quruculuğunda böyük uğurlarını nümayiş etdirir. Ölkə prezidenti İKT sahəsinin inkişafını daim diqqət mərkəzində saxlayır. Onun İKT sahəsində irəli sürdüyü mülahizələr Azərbaycanda İC quruculuğu sahəsində dövlət strategiyasının əsasında durur. Bu baxımdan İC-nin inkişaf mexanizmi kimi infotelekommuni-kasiya sistemləri probleminin öyrənilməsini aktual məsələlərdən biri kimi qeyd etmək lazımdır. Azərbaycanda infotelekommunikasiya sistemlərinin inkişafı, miqyaslılıq, templərin artması kimi amillərlə şərtlənir: Bu isə həmin sistemləri Azərbaycan iqtisadiyyatının resursu kimi nəzərdən keçirməyə imkan verir. İnfrastruktur əlamətləri infrotelekommunikasiya resurslarını milli iqtisadiyyatın yüksək inkişafı, cəmiyyətin işgüzar və intellektual fəallığının artması, ölkənin dövlət orqanlarının işinin səmərəliliyinin artması faktoru kimi qiymətləndirmək olar. Bu kontekstdə Azərbaycanda "E-hökümət" infrastrukturunun fəaliyyətini formalaşdırmaq və təmin etmək probleminə Azərbaycan hökuməti öz fəaliyyətində önəmli yer ayırmışdır. Belə bir konseptual məsələnin həlli Azərbaycanın informasiya inkişafına, İC quruculuğuna aparan yoldur. Bütün bu cəhətlər dövlətin effektli informasiya təhlükəsizliyi siyasətinin həyata keçirilməsini daha da aktuallaşdırır.

Azərbaycan hökuməti İnformasiya təhlükəsizliyini minimuma endirmək məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsinə rəvac verir:

- Bir qayda olaraq ilk addım kimi ölkənin iqtisadiyyatının möhkəmləndirməsi tövsiyə olunur. Ölkənin regionlarının düzgün, rasional və kifayət qədər inkişafı bütün cəmiyyətin rifahının yaxşılaşması, hər kəsin informasiya əlçatarlığının təmin olunması deməkdir.
- Ölkə ərazisində geniş və keyfiyyətli telekommunikasiya şəbəkəsinin yaradılması üzrə proqramın dövlət maliyyələşdirilməsi. İnkişaf etməmiş telekommunikasiya şəbəkəsi yalnız ölkənin iqtisadiyyatındakı böhrandan xəbər verir ki, çünki belə halda dövlətin şəbəkələrin inkişafına sərmayə qoymaq imkanı olmur.
- İmkansız insanların pulsuz olaraq müasir informasiya-kommunikasiya texnologiyalarına əlçatarlığını təmin etmək, bu bir çox sosial problemlərin həllinə kömək etmiş olardı.
- İnformasiya sahəsində savadsızlığın aradan qaldırılması təhsil sisteminin xüsusi diqqət mərkəzində olmalıdır. Rasional təhsil sistemi informasiya texnologiyalarından istifadənin üstünlüyü barədə ictimai rəyin düzgün formalaşmasında mühüm sosial faktordur.

– Bu sahədə dövlət aparatının rolu genişlənməli, hər cür bürokratik idarəçilik halları aradan qaldırılmalıdır.

Bu gün Azərbaycanda informasiya cəmiyyətinin inkişafı üçün müəyyən siyasi, hüquqi ilkin şərtlər yaranmış, vətəndaşların informasiyaya əlçatarlığı üçün "informasiya mühiti" formalaşmışdır. Ölkəmizin informasiya məkanı, informasiya resursları və texnologiyaları cəmiyyətimizin sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafına xidmət edir. Təsadüfi deyildir ki, müstəqilliyinə nail olduqdan sonra Azərbaycan milli təhlükəsizliyinin əsas mənbələrindən biri də informasiya təhlükəsizliyinin qorunması, vahid milli informasiya sisteminin formalaşdırılması olmuşdur [9, s-143].

Bu gün Azərbaycan Respublikasında informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyi, dövlət orqanlarının informasiya resurslarının qorunması problemlərinin həyata keçirilməsinə xüsusi diqqət yetirilir. Ölkə prezidenti İlham Əliyevin 2012-ci il 26 sentyabr tarixli Fərmanına əsasən kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyası mövcud və yarana biləcək elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırma, əhalinin, özəl və digər qurumların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsi və onlara metodiki kömək göstərilməsi məqsədilə Elektron təhlükəsizlik mərkəzi yaradılmışdır [10].

Qeyd edək ki, Azərbaycanın informasiya təhlükəsizliyi doktrinasında informasiya təhlükəsizliyi informasiya münasibətlərindəki subyektlərə, o cümlədən informasiya sahibləri və ondan istifadə edən və onu dəstəkləyən istifadəçilərə infrastrukturun təbii və süni xarakteri, təsadüfi və ya bilərəkdən edilən təsirlərdən mühafizə olunmaq kimi başa düşülür.

Akademik Ramiz Mehdiyev yazır: "Heydər Əliyevin sosial-iqtisadi konsepsiyasının ana xətti həmişə belə bir ideyadan ibarət olmuşdur ki, iqtisadiyyatın yüksəlişi insanların həyatını yaxşılaşdırmaq məqsədinə tabe edilməlidir" [11, s-162].

Heç şübhəsiz ki, Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti də bu ülvi məqsədə xidmət edən edən mühüm sosial faktorlardan biridir. Nəticə etibarı ilə demək olar ki, ölkəmizin hərtərəfli inkişafı, onun müxtəlif sahədə uğurlara nail olması üçün milli təhlükəsizliyin təmin olunması, bütövlükdə informasiya təhlükəsizliyi mühüm əhəmiyyətə malikdir və bununla əlaqədar bütün tələblər yetərincə təmin olunmalıdır.

## ƏDƏBİYYAT

[1] Е.Н. Богатырева Феномен информации в контексте научного познания: философский анализ, М, 2000,Автореферат кандидатской диссертации, стр.142

[2] Д. Белл Социальные рамки информационного общества. Новая технократическая волна на Западе. М.: Прогресс, 1986. с. 330-342.

[3] Проблемы предложения цифрового неравенства, Материалы международного семинара, М, Дом Правительства РФ, интернет ресурс: www.cheloveknauka.com

[4] В.Н. Костюк Информация как социальный и экономический ресурс, М, 1997 стр 23

[5] 5. http://www.ils.ru/glossary/digitaldivide.ru html

[6] И. Ю. Алексеева, Информационные вызовы национальной и международной безопасности, М., 2001 стр 263

[7] Р. Мехтиев. Десять лет, изменившие Азербайджан 2003-2013, М, "ГРИФ и К",2013, 248 с.

[8] В.А. Козлов, А.С.Олейник. Национальная информационная инфраструктура: проблемы формирования," www.cplire.ru

[9] Ə. Həsənov, "Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti," Bakı,"İnterpress" nəşriyyat evi, 2011,s.143

[10] İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, "Azərbaycan" qəzeti, 26 sentyabr, 2012-ci il

[11] R. Mehdiyev, "Azərbaycanın inkişaf dialektikası," Bakı, Azərbaycan Milli Ensiklopediyası, 2000,